ədalət.- 2023.- 11 fevral.- S.8.

*Əyyub Şırlanlı, şair-publisist, AYB-nin üzvü, "Məclisi-Üns"- "Söz-Gülüstanı" Ədəbi Birliyinin rəhbəri, Əməkdar müəllim*

# SƏNDƏN XAHİŞİM VAR, AY ŞƏHƏR SALAN!...



Səndən xahişim var, ay şəhər salan,
Toxunma ruhuna köhnə Şuşanın!
Şuşa-Qarabağın daş yaddaşıdır,
Şuşa-Qarabağın zümrüd qaşıdır.
Şuşa-Vətənidir türksoy babamın,
Cənnətməkanıdır Azərbaycanın!
Təzə şəhərlərə oxşatma onu!...
Şuşa - Qarabağın tac şəhəridir,
Şuşa-yerdə cənnət, göydə pəridir.
Şuşadan söz açmaq hər gün yeridir...
Şuşadan yazılıb yüzlərlə əsər,
Diqqət et, gör burda nələr var, nələr?!
Bu şəhər - şəhərlər şahənşahıdır,
Bu şəhər - Günəşlə, Ayla qoşadır...
Bu şəhər - dünyanı heyrətə salıb,
Adı - Pənahabad, adı - Şuşadır!
Dahilər ruhu var hər bir daşında,
Bunları gəl saxla sən yaddaşında!..
Təzə şəhərlərə oxşatma onu!...
Orda Pənah xanın əl izləri var,
Orda səyyahların yol izləri var,
Orda anaların cehizləri var,
Şuşanın bənzərsiz gündüzləri var...
Orda Pənah oğlu İbrahim xanın,
Şuşa bəylərinin sarayları var.
Orda Şuşa üçün canından keçmiş,
Şəhidin, qazinin harayları var!
Orda Kərbəlayı Şəfixan bəyin,
Daşlara həkk olmuş naxışları var.
Şuşa gözəlinin-Gövhər ağanın,
Qoşa minarədə baxışları var!
Ordan qanad açıb min-bir arzular,
Orda Natəvanın "Məclisi-Üns" ü var.
Böyük kitabədir qayası,daşı,
Qoyma əl uzatsın Şuşaya naşı...
Təzə şəhərlərə oxşatma onu!...
Unutma tarixdən gələn yaddaşı,
Qaytar qoy yerinə hər sınıq daşı.
Tullama kənara bir çınqılın da,
Tullama ocağa qamqalağın da...
Insanı mat qoyur dağı, dərəsi,
Heyrət dünyasıdır hər mənzərəsi.
Başqa bir aləmdir suyu, havası,
Dərdlərə dərmandır çiçək dünyası...
Bu şəhər-yenilməz bir Komandanın,
"Dəmir yumruğ" unun təntənəsidir!
Bu şəhər-Şəhidin, həm də Qazinin,
Bizə gəlib çatan şah əsəridir!
Yuxumda mələklər dedi bu sözü:
"Qibləyə qoy baxsın Şuşanın üzü!"
Diz çöküb öpmüşəm şəhidin qanın,
Toxunma ruhuna köhnə Şuşanın!
Şuşa-Vətənidir türksoy babamın.
Şuşa-Paytaxtıdır Azərbaycanın!!!
Səndən xahişim var, ay şəhər salan,
Təzə şəhərlərə oxşatma onu!...

*Qeyd: Paytaxt-Mədəniyyət Paytaxtı kimi nəzərdə tutulmuşdur.*

2021-ci il